**Samir Orucov**

**UOT: 338; JEL: D20.**

# Azərbaycanda kiçik və orta sahibkarlığın vəziyyəti və təsnifat meyarlarının qiymətləndirilməsi

***Xülasə***

*Məqalədə ölkəmizdə kiçik və orta sahibkarlıq (KOS) sektorunun inkişafı sahəsində görülən işlərə toxunulmuş və digər ölkələrlə müəyyən paralellər aparılmışdır. Məxsusən, göstərilmişdir ki, KOS sektoru inkişaf etmiş ölkələrin xarakterik cəhəti olsa da, bu cür ölkələrdə adətən KOS-un sektorlar və regionlar üzrə paylanması daha hamar və bərabərşəkillidir. Azərbaycanda isə qeyd olunan hər iki meyar üzrə KOS-ların paylanması bərabər şəkilli deyildir. Bundan başqa, məqalədə KOS və iqtisadi inkişaf əlaqəsinin öyrənilməsinə və ümumiyyətlə, bu sektor üzrə dövlət dəstəyi siyasətinin həyata keçirilməsinə maneə törədən təsnifat meyarlarına toxunulmuş və alternativ təsnifat meyarları təklif edilmişdir.*

***Açar sözlər**: kiçik və orta sahibkarlıq; iqtisadi inkişaf; təsnifat; meyarlar; dövlət dəstəyi*

## Giriş

Kiçik və orta sahibkarlıq sektorunun iqtisadiyyatda payının yüksək olması inkişaf etmiş ölkələrin əsas xarakterik cəhətlərindəndir. İqtisadçıları maraqlandıran məsələ bu ikiliyin qarşılıqlı inkişaf mexanizminin strukturunu öyrənməkdir. Ümumiyyətlə, iqtisadçıların qarşısında duran sual belədir: KOS sahəsinin inkişaf etdirməklə daha güclü iqtisadi inkişafa nail olmaq olarmı, yoxsa ölkənin iqtisadiyyatı başqa bir ekzogen təsir nəticəsində inkişaf edir və nəticədə KOS-un iqtisadiyyatda çəkisi də artmış olur? Dolayısı ilə, səbəb-nəticə zəncirinin başlanğıcının KOS-dan yoxsa iqtisadi inkişafdan gəlməsi hələ də tam araşdırılmamış məsələdir. Cari işdə ölkəmizin KOS sektorunda gördüyü işlərə toxunacağıq və digər ölkələrlə müəyyən paralellər aparacağıq. Məxsusən, göstərəcəyik ki, KOS sektoru inkişaf etmiş ölkələrin xarakterik cəhəti olsa da, bu cür ölkələrdə adətən KOS-un sektorlar və regionlar üzrə paylanması daha hamar və bərabərşəkillidir. Azərbaycanda isə qeyd olunan hər iki meyar üzrə KOS-ların paylanması qeyri-bərabər şəkillidir ki, bu məsələnin də kökündə duran amilləri nəzərə almaq lazımdır. Bundan sonra, KOS və iqtisadi inkişaf əlaqəsinin öyrənilməsinə və ümumiyyətlə, KOS sektoru üzrə dövlət dəstəyi siyasətinin həyata keçirilməsinə maneə törədən təsnifat meyarlarına toxunacağıq.

## Azərbaycanda KOS sahəsində görülən işlərin və cari vəziyyət

Azərbaycan kiçik və orta sahibkarlığın inkişafı üçün bir çox işlər görülmüşdür. Dünya Bankının 2019-cu il hesabatına əsasən Azərbaycan qlobal islahatçı ölkə kimi sıralanmışdır çünki biznes mühitinin yaxşılaşdırılması üzrə müəyyən edilmiş 10 göstəricidən 7-sində irəliləyişə nail olmuşdur. Görülmüş işlər nəticəsində sahibkarlıqla məşğul olmanın asanlığı sahəsində ölkəmiz 97-ci sıradan 33-cü sıraya yüksəlmişdir. Qanunvericilik və institusional dəyişikliklər ölkədə investisiya mühitinin yaxşılaşdırılmasına bilavasitə təsir göstərmişdir [1]. Əlavə olaraq sahibkarlığın inkişafı sahəsində bir sıra qurumlar yaradılmışdır. Bakı Biznes Təlim Mərkəzi və onun regional mərkəzləri, Sahibkarlığa Kömək Milli Fondu və İxracın və İnvestisiyaların Təşviqi Fondu kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyət göstərən əsas qurumlardandır. Lakin, 2015-ci ildə aparılan sorğu və tədqiqatlar nəticəsində aydın olur ki, sahibkarlığa maddi və təlim dəstəyi verən bu qurumların xidmətlərindən kiçik və orta sahibkarların 79%-i xəbərsizdir [2]. Bundan başqa, Asan Xidmət Mərkəzi və Sahibkarlığa



*©Samir Orucov ADA Universiteti, müəllim. Email: sorujov@ada.edu.az*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Kömək Milli Fondunun birgə həyata keçirdiyi ABAD layihəsi diqqətəlayiqdir ki, bu da öz növbəsində kiçik və orta sahibkarlığa mane olan bir sıra məsələləri – kommersiya bank resurslarının əlçatan olmaması, yüksək faiz dərəcələri və ixtisaslı işçi qüvvəsinin çatışmamazlığı problemlərini həll etməyə çalışır [2, s.2] . Təbii ki, görülən bütün işlərin kökündə qeyri-neft sektorunun inkişafı və ölkə iqtisadiyyatının neftdən asılılığının minimuma endirilməsi istəyi durur. Xüsusən, neft qiymətlərinin sonuncu dəfə kəskin düşməsi bu məqsədi daha da aktuallaşdırmışdır. Ümumiyyətlə, Azərbaycanda sahibkarlığın inkişafı üçün atılan addımlar haqqında kifayət qədər məruzələr vardır [2, s. 5], [3]–[5]. Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şərq Tərəfdaşlığı Ölkələri üçün 2016-ci ildə hazırladığı məruzədə şərq tərəfdaşlığı ölkələrinin 2012-ci ildən 2016-ci ilə qədər KOS siyasətinin həyata keçirilməsi üzrə instutisional və tənzimləmə çərçivəsində inkişafının dinamikası təsvir edilmişdir. Bu sahədə Azərbaycanın inkişaf indeksi 1.95-dən 2.47-ə yüksəlmişdir ki, bu da çox mühüm göstəricidir. Digər ölkələrdə isə 2016-ci ilə olan inkişaf indeksi 2012-ci ilə nəzərən əhəmiyyətli dərəcədə artmamışdır [4, səh. 12].

**Şəkil. 1.**

**KOS siyasətinin instutisional və tənzimedici çərçivəsi üzrə indeks**




Mənbə: [4]

Maraqlı məsələ görülən bütün işlər fonunda ölkədəki kiçik və orta sahibkarlığın inkişaf dinamikasıdır. Dövlət Statistika Komitəsinin 2016-ci ilə aid olan məlumatları göstərir ki, ölkədə qeydiyyatda olan sahibkarlıq subyektlərinin 80.6%-i kiçik sahibkarlıq subyektləri olsa da, ümumi iş yerlərinin cəmi 6.3%-i, yaradılan əlavə dəyərin isə cəmi 4%-i sonuncuların payına düşür [6].

Şəkil 2-də göründüyü kimi, 2017-ci ildə bu rəqəmlərdə nisbətən irəliləmə olsa da, nəticələr KOS-un iqtisadiyyatda payının əhəmiyyətli dərəcədə artdığını deməyə əsas vermir. Maraqlı məsələ budur ki, inkişaf etmiş ölkələrdə yaradılan əlavə dəyərin 50%-dən çoxu kiçik və orta sahibkarların payına düşür. Bizdə isə bu rəqəm çox kiçikdir. Təbii ki, bunun əsas səbəbi ölkəmizin neft ixrac etməsi və böyük şirkətlərin də əsasən bu sahədə fəaliyyət göstərməsi ilə bağlıdır [2, s.4]. Bundan başqa, KOS-un sektorlar üzrə paylanması da mühüm məsələlərdən xəbər verir. Gördüyümüz kimi kiçik sahibkarların 49%-i pərakəndə satış sahəsində fəaliyyət göstərir. Bunun səbəbi kimi pərakəndə satış sahəsində inhisarçılığın nisbətən zəif olması, bu cür fəaliyyət üçün tələb olunan ilkin kapitalın miqdarının az olması və ümumiyyətlə ölkədə istehsal sferalarından çox istehlak sferalarının inkişafı göstərilir [2, s. 15]. Almaniya kimi inkişaf etmiş ölkədə KOS-ların iqtisadi fəaliyyət sahələri üzrə paylanması daha hamar və nisbətən bərabərşəkilli xarakter daşıyır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 2.**

**Ölkə iqtisadiyyatında kiçik və orta sahibkarlıq subyektlərinin payı (2017, %)**




Maraqlı faktlardan biri budur ki, KOS-un ÜDM-ə töhfəsi baxımından Azərbaycan bir çox MDB ölkələrindən geri qalır. Məsələn, Ukraynada bu töhfə 58%, Gürcüstanda 43%, Ermənistanda isə 42% təşkil edir. Qeyd etdiyimiz kimi, Azərbaycanda bu rəqəm ortalama olaraq 4%-dir [2, s.15]. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şərq Tərəfdaşlığı Ölkələri üçün 2016-ci ildə hazırladığı məruzədə Azərbaycanın KOS siyasətində aşağıdakı problemlər müəyyən edilmişdir [4, s. 22]:

- Orta vədəli siyasət planlarının hazırlanmaması siyasət qərarlarının fraqmentasiyasına (parçalanmasına) və illik proqramlara həddindən artıq güvənməyə gətirib çıxarmışdır;
- Siyasət qərarlarının tərtibatı və icrasının institusional bölgüsü natamamdır. Azərbaycanda KOS sahəsində icraedici agentlik yoxdur (artıq var - Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il fərmanı ilə "Azərbaycan Respublikasının Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi" yaradılmışdır);
- KOS statistik məlumatlarının keyfiyyətsizliyi və əlçatmazlığı sübutlara əsaslanan siyasət qərarlarının verilməsində və cari inisiativlətin monitorinqi və qiymətləndirilməsində əsas maneədir;
- Tənzimləyici (hüquqi) təsir mexanizminin olmaması.

Ölkəmizdə kiçik və orta sahibkarlığın vəziyyəti, mümkün risklər, SWOT analizi və digər məsələlər kifayət qədər məqalə və məruzələrdə öz əksini tapmışdır [4, s.32], [5, s. 13].

**Şəkil 3.**

**Azərbaycanda KOS-un iqtisadi sektorlar üzrə paylanması (2017)**




Mənbə: [6].



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**KOS təsnifatı və bu təsnifatın əsasında duran meyarların əhəmiyyəti**

Bu məruzələrdə az toxunulan, lakin, həm KOS-la bağlı iqtisadi elmi araşdırmaların aparılması və həm də iqtisadi siyasətin həyata keçirilməsi zamanı mühüm əhəmiyyət kəsb edən məsələ KOS təsnifatı və bu təsnifatın əsaslandığı meyarlardır. Azərbaycanda KOS təsnifatı və meyarları məsələsi kifayət qədər problemli olmuşdur. Məxsusən də, bu təsnifatın və təsnifatın kökündə duran meyarların qısa zaman kəsiyində tez-tez dəyişdirilməsi KOS-larla bağlı elmi araşdırmalara əsaslanan siyasət qərarlarının mövcud olmamasından xəbər verir.

**Şəkil 4.**

**Almaniyada KOS-un iqtisadi sektorlar üzrə paylanması (2018)**




Mənbə: [7].



İlk öncə, qeyd etmək lazımdır ki, KOS təsnifatı və bu təsnifatın kökündə dayanan meyarlar sonunculara yönələn yardımların ünvanını təyin etmək üçün Azərbaycan mühüm əhəmiyyət kəsb edir. Təsnifat meyarlarının qısa tarixçəsinə və onların qısa zaman kəsiyində bir neçə dəfə dəyişdirilməsinə diqqət çəkmək istərdim. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədləri"nin təsdiq edilməsi haqqında 20 aprel 2004-cü il tarixli, 57 nömrəli qərarına əsasən KOS-un təsnifat meyarları iqtisadi fəaliyyət sahəsi və illik dövriyyə üzrə Cədvəl 1-dəki kimi müəyyən edilmişdir [8].

**Cədvəl 1.**

**ARNK-nin 20 aprel 2004-cü il tarixli, 57 nömrəli qərarına əsasən KOS-un təsnifat meyarları**

| Sahibkarlıq kateqoriyası | İşçilərin orta siyahı sayı (nəfər) | İllik dövriyyə (ƏDV, aksiz daxil olmadan) |
|---|---|---|
| **Sənaye və tikinti** | < 50 | **≤ 500 min manat** |
| **Kənd təsərrüfatı** | < 25 | **≤ 250 min manat** |
| **Topdansatış ticarət** | < 15 | **≤ 1 mln. manat** |
| **Pərakəndə satış ticarət, nəqliyyat, xidmət və digər iqtisadi fəaliyyət növləri** | **< 10** | **≤ 250 min manat** |

Sonralar iqtisadi fəaliyyət növləri üzrə təsnifatdan imtina edilmişdir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İri, orta və kiçik sahibkar meyarları"nın təsdiq edilməsi haqqında 5 iyun 2015-ci il tarixli, 215 nömrəli

© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

**Cədvəl 2.**

**ARNK-nin 5 iyun 2015-ci il tarixli, 215 nömrəli qərarına əsasən KOS-un təsnifat meyarları**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası | İşçilərinin orta siyahı sayı | İllik gəliri |
|---|---|---|
| **Kiçik sahibkar** | 25 nəfərədək | *120* min manatadək |
| **Orta sahibkar** | 25 nəfərdən 125 nəfərədək | *120* mindən 1.250 min manatadək |
| **İri sahibkar** | 125 nəfər və ondan yuxarı | 1.250 min manat və ondan yuxarı |

Mənbə: [9].

Bundan sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 iyun 2016-ci il tarixli, 258 nömrəli qərarı ilə meyarlar Cədvəl 3-dəki şəkildə dəyişdirilmişdir [10].

**Cədvəl 3.**

**ARNK-nin 29 iyun 2016-ci il tarixli, 258 nömrəli qərarına əsasən KOS-un təsnifat meyarları**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyası | İşçilərinin orta siyahı sayı | İllik gəliri |
|---|---|---|
| **Kiçik sahibkar** | 25 nəfərədək | *200* min manatadək |
| **Orta sahibkar** | 25 nəfərdən 125 nəfərədək | *200* min manatdan 1.250 min manatadək |
| **İri sahibkar** | 125 nəfər və ondan yuxarı | 1.250 min manat və ondan yuxarı |



Lakin, 21 dekabr 2018-ci il tarixli 556 nömrəli qərara əsasən sahibkarlıq subyektlətinin bölgüsü təkrar aparılmışdır və yeni meyarlar müəyyən edilmişdir. Sonuncu qərara əsasən sahibkarlıq subyektlərinin ölçü vahidinə görə təsnifatına Cədvəl 4-dəki kimi mikro müəssisələr də əlavə edilmişdir [11].

**Cədvəl 4.**

**ARNK-nin 21 dekabr 2018-ci il tarixli 556 nömrəli qərarına əsasən KOS-un təsnifat meyarları**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları | İşçilərinin orta siyahı sayı (nəfər) | İllik gəliri (ig) (min manat) |
|---|---|---|
| **Mikro sahibkar** | 1 - 10 | ig ≤ 200 |
| **Kiçik sahibkar** | 11 - 50 | 200 < ig ≤ 3 000 |
| **Orta sahibkar** | 51 - 250 | 3 000 < ig ≤ 30 000 |
| **İri sahibkar** | 251 və ondan yuxarı | 30 000 < ig |

Gibson (2001) qeyd edir ki, “KOS təsnifatının aparılmasının önəmi odur ki, inkişaf etməkdə olan ölkələrdə iqtisadi artımın sürətləndirilməsində maraqlı olan qurumlar inanırlar ki, mikro və iri sahibkarlar arasında elə bir sahibkarlıq təbəqəsi var ki, o təbəqənin inkişafı iqtisadi artım üçün mühüm əhəmiyyət kəsb edir. Beləliklə də, inanılır ki, qeyd olunan təbəqəyə yardım edərək(əsasən maliyyə vasitələrinə çıxışı təmin edərək) inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafı gücləndirmək mümkündür”[15, s.27]. Maraqlı məsələ odur ki, fərqli araşdırmalar KOS-un iqtisadi artım üzərində təsiri haqda fərqli nəticələrə gəlmişdir. Bəzi alimlər KOS və iqtisadi artım arasında səbəb-nəticə əlaqəsinin olmadığını düşünürlər. Elmi araşdırmalardakı bu ziddiyyətlərin əsas səbəblərindən biri də odur ki, KOS-un fərqli ölkələrdə fərqli təsnifatı mövcuddur və bu təsnifat göründüyü kimi tam ixtiyari xarakter daşıyır [16]. Beləliklə də, KOS təsnifatı necə aparılmalıdır sualı meydana çıxır. İndiyə qədər

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Azərbaycanda KOS təsnifatı bu məntiqə əsaslanıb: İxtiyari şəkildə KOS üçün müəyyən təsnifat meyarları müəyyən edilib. Sonra isə inanılıb ki, KOS kimi təsnif edilən müəssisələrə yardım etmək həqiqətən iqtisadi inkişafı sürətləndirir. Qısa zaman kəsiyində KOS təsnifatının bir neçə dəfə dəyişdirilməsi bu təsnifatın ixtiyari şəkildə aparılmasının bir sübutudur. Fikrimizcə, təsnifatın kökündə duran məntiqi mərhələlər aşağıdakı kimi olmalıdır:

- Hansı xassələrə malik olan müəssisələrə yardım etmək iqtisadi inkişafa daha çox töhfə verir?
- Yardım aldıqdan sonra daha çox böyüyən müəssisələr KOS kimi təsnif olunmalı və dövlət proqramları qeyd olunan KOS-ları hədəfləməlidir.

İnkişaf etməkdə olan ölkələrdə KOS-un inkişafının iqtisadi artıma təsir edib-etməməsi uzun müzakirələr mövzusu olmuşdur. KOS-un yanlış anlayışı(təsnifatı) bu müzakirələrin səmərəliliyinə mənfi təsir etmişdir. Gibson (2001) KOS-un vahid tərifi və təsnifatı ilə bağlı 3 əsas məsələni qeyd edir [15]:

- Vahid KOS tərifinin olmaması və yaxud rəsmi təriflər arasında olan uyğunsuzluqlar özəl sektorun inkişafına maliyyə yardımlarının yönəldilməsinə mənfi təsir edə bilər;
- Sahibkarlıq subyektinin dövriyyəsinin həcmi onun ölçüsünün təyin edilməsində aktivlərin dəyəri və ya işçi sayı kimi göstəricilərlə müqayisədə daha münasibdir;
- İnkişafın müxtəlif mərhələlərində olan fərqli ölkələr üçün vahid KOS tərifinin verilməsi əlavə çətinliklərə gətirib çıxara bilər.

Düzgün və vahid təsnifatın olmamasının yaratdığı 3 problemə 4-cünü də əlavə etmək istərdik ki, bu da KOS haqqında ölkələrarası panel məlumatlarına əsaslanan reqressiya tənliklərinin qurulması və KOS-un iqtisadi inkişafa təsirinin ölçülməsində meydana çıxan problemlərdir. Öz növbəsində, sonuncu məsələ elmi araşdırmalara əsaslanan siyasət qərarlarının verilməsində də çətinliklər yaradır. Ümumiyyətlə, KOS-un təsnifatı müxtəlif ölkələrdə müxtəlif cür və tam ixtiyari şəkildə(iqtisadi məntiqə əsaslanmadan) aparılmışdır. Məsələnin mahiyyəti odur ki, KOS iqtisadi yox, tam statistik məfhumdur [15, s.3]. Belə ki, iqtisadçılar və siyasət qərarları verən şəxslər inanırlar ki, mikro müəssisələr və böyük müəssisələr arasında yerləşən sahibkarlıq subyekləri imkanlar və üzləşdikləri problemlər baxımından digər iki qrupdan fərqlənirlər. Beynəlxalq təşkilatların və fərqli ölkələrin KOS-la bağlı çox fərqli tərifləri vardır. Aşağıdakı Cədvəl 5-də beynəlxalq təşkilatların KOS anlayışının necə fərqləndiyini görə bilərik.

Bu institutların təyin elədiyi KOS həddini Azərbaycan kimi kiçik iqtisadiyyatı olan ölkələrə tətbiq etməyimiz təbii ki, mənasızdır. Məsələn, kənd təsərrüfatı sektorunda illik dövriyyəsi 15,000,000 dollar olan sahibkarlıq subyektinin nəinki KOS sinfinə daxil edilməsi, ümumiyyətlə mövcud olması sual altındadır. Bundan başqa qəbul olunmalıdır ki, hər bir ölkənin iqtisadiyyatı özünəməxsus xarakterə malikdir və iqtisadi inkişafın fərqli mərhələsindədir. Buna görə də, bütün ölkələr üçün vahid KOS təsnifatı mümkün deyildir.

**Cədvəl 5.**

**Beynəlxalq İnstitutlar Tərəfindən İstifadə Olunan KOS təsnifatı**

| İnstitut | Maksimal İşçi Sayı | Maksimal Gəlir və ya Dövriyyə ($) | Maksimal Aktivlər ($) |
|---|---|---|---|
| Dünya Bankı | 300 | 15,000,000 | 15,000,000 |
| Beynəlxalq Amerika İnkişaf Bankı | 100 | 3,000,000 | Yoxdur |
| Afrika İnkişaf Bankı | 50 | Yoxdur | Yoxdur |
| Asiya İnkişaf Bankı | Rəsmi təsnifatı yoxdur və yerli hökümətlərin təsnifatını istifadə edir | | |
| Birləşmiş Millətlər İnkişaf Proqramı | 200 | Yoxdur | Yoxdur |
| Mənbə: [15] | | | |



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Bundan başqa KOS təsnifatının tam ixtiyari şəkildə aparılmasının isbatı olaraq Cədvəl 6-ya baxa bilərik. Cədvəl 6-da ölkələr həm adambaşına düşən ÜMM-un həcminə görə, həm də KOS sektorunun iqtisadiyyatda payına görə sıralanmışdır.

**Cədvəl 6.**

**Ölkələrin adambaşına düşən ÜMM-a görə və KOS sektorunun maksimal işçi sayına görə çoxdan aza doğru sıralanması**

| Adambaşına düşən ÜMM | İşçilərin Maksimum sayı | KOS sektorunun iqtisadiyyatda ölçüsü | İşçilərin Maksimum sayı |
|---|---|---|---|
| Norveç | 100 | Vietnam | 300 |
| İsveçrə | 250 | Belarus | 250 |
| Avstraliya | 200 | Moldova | 250 |
| Azərbaycan | 125 | İsveçrə | 250 |
| Braziliya | 100 | Avstraliya | 200 |
| Belarus | 250 | Mərakeş | 200 |
| Tailand | 200 | Peru | 200 |
| Peru | 200 | Tailand | 200 |
| Moldova | 250 | Azərbaycan | 125 |
| Mərakeş | 200 | Banqladeş | 100 |
| Misir | 50 | Braziliya | 100 |
| Nikaraqua | 100 | Qana | 100 |
| Pakistan | 50 | Nikaraqua | 100 |
| Vietnam | 300 | Norveç | 100 |
| Banqladeş | 100 | Misir | 50 |
| Qana | 100 | Malavi | 50 |
| Tanzania | 20 | Pakistan | 50 |
| Malavi | 50 | Tanzania | 20 |

Mənbə: [15].



Yuxarıdakı cədvəldə hər bir ölkədə KOS üçün təyin olunan maksimal işçi sayına nəzər salaq. Məntiq etibarilə, hər iki cədvəldə ölkələrin sırası təqribən eyni olmalı idi. Çünki, daha çox inkişaf eləmiş ölkələrdə KOS sektorunun daha böyük olması gözlənilləndir. Lakin, gördüyümüz kimi yerli hökümətlərin təyin etdiyi meyarlar bir biri ilə və ümumi iqtisadi məntiqlə üst-üstə düşmür. İşçi sayını meyar kimi götürdükdə görərik ki, Norveçin ən böyük KOS-u Vietnamın ən böyük KOS-undan 3 dəfə balacadır, halbuki Norveç KOS-larının Vietnam KOS-una görə daha çox dövriyyəyə malik olması gözləniləndir [15, s.23].

**Kənd təsərrüfatı sektorunda KOS təsnifatının çətinlikləri**

Kənd təsərrüfatının ölkəmiz üçün xüsusi əhəmiyyəti olduğuna görə və məxsusən də, bu sahənin vergidən azad olmasına görə KOS-un kənd təsərrüfatı sektorunda təsnifat məsələsinin üzərində durmaq istərdik. Kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektlərə dövlət yardımı regional inkişaf, ərzaq təminatı, yoxsulluq və işsizliklə mübarizə məsələlərində önəm kəsb edən məsələdir. Bu səbəbdən də qeyd olunan subyektlərin düzgün təsnifatı mühümdür.

Kənd təsərrüfatının vergidən azad olması bu sahədə KOS subyektlərinin düzgün təyin edilməsi və uçotunun aparılması məsələlərini mürəkkəbləşdirir. Belə ki, Azərbaycan Respublikasının qanunvericiliyinə görə kənd təsərrüfatı sahəsində dəyəryaradıcı subyektlər yalnız vergi orqanlarında qeydiyyatdan keçdikdən sonra sahibkarlıq subyekti sayılırlar. Bu isə təsnifat, uçot və yardım məsələlərində problemlər yaradır.

**Nəticə**

Təsərrüfatı sferasında fəaliyyət göstərən KOS-ların təsnifat məsələlərini qeyd etdikdən sonra, ümumiyyətlə, cari işdə təklif etdiyimiz KOS təsnifatının və sonuncunun əsasında duran meyarların faydalılığını əsaslandırmaq istərdik: mikro şirkətlər bizim maraq dairəmizdən bəzən kənarda qalır. Bu təsnifatın üstünlüyü odur ki, hər bir sektorun adambaşına düşən real ÜDM-ə verdiyi töhfəyə əsasən aparılmışdır. Ölkəmiz neft ixracatçısı olduğu üçün sənaye sahəsinin ÜDM-ə töhfəsi digər sektorlardan çoxdur. Bu o deməkdir ki, ölkəmizdə sənaye sahəsi nisbətən böyükdür və buna görə də bu sahədə KOS-lar üçün qoyulan dövriyyə sərhəddi digər sahələrdən daha yüksək olmalıdır. Təsnifatın digər müsbət cəhəti odur ki, KOS olmanın minimal həddini nəzərdə tutmuşdur. Qeyd olunan təsnifat iqtisadi məntiqə əsaslansa da verilən meyarlar hazırki təsnifatda olduğu kimi ixtiyari xarakter daşıyır. Qeyd etdiyimiz kimi, daha əsaslı təsnifatın və meyarların təyin edilməsi üçün mikro səviyyəli məlumat bazasına malik olmaq lazımdır ki, bu da çox təəssüf ki, ictimaiyyətə açıq deyildir. Bu səbəbdən də, ölkədə müəssisə səviyyəsində dəqiq və şəffaf məlumat bazasının yaradılması həyati əhəmiyyətə kəsb edir.

## Ədəbiyyat

1. “Doing Business 2009 - World Bank Group,” 2009.
2. V. Bayramov, R. Hasanov, L. Aghayarli, Z. Kadyrov, I. Aghahasanli, and S. Isayev, “A Comparative Study on Development of Small and Medium Enterprises (SMEs) in Azerbaijan,” p. 74, 2017.
3. International Finance Corporation, “Study of Small and Medium Enterprises in Azerbaijan,” Jan. 2009.
4.“SME Policy Index: Eastern Partner Countries 2016 | READ online.” [Online]. Available: https://read.oecd-ilibrary.org/development/sme-policy-index-eastern-partner-countries-2016_9789264246249-en#page100. [Accessed: 24-Jul-2018].
5. CESD, “Small and Medium Entrepreneurship in Azerbaijan; Country Assessment,” 2012.
6. “The State Statistical Committee of the Republic of Azerbaijan,” 2019. [Online]. Available: http://stat.gov.az/indexen.php. [Accessed: 24-Mar-2015].
7 .“Germany: SMEs industry sectors 2018 | Statista.” [Online]. Available: https://www.statista.com/statistics/701524/monthly-sme-industry-sectors-germany/. [Accessed: 06-Oct-2019].
8. İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədləri”nin təsdiq edilməsi haqqında. 2014.
9. “İri, orta və kiçik sahibkar meyarları”nın təsdiq edilməsi haqqında. 2015.
10 .Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 215 nömrəli qərarı ilə təsdiq edilmiş “İri, orta və kiçik sahibkar meyarları”nda dəyişikliklər edilməsi barədə. 2016.
11. “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında. 2018.
12. Sahibkarlıq fəaliyyəti haqqında. 1992.
13. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. 2017.
14. H. J. van der V. and T. Gibson, “Defining SMEs: A Less Imperfect Way of Defining Small and Medium Enterprises in Developing Countries,” Brookings, 30-Nov-2001. .



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

15. R. Levine and S. J. Zervos, “What We Have Learned about Policy and Growth from Cross-Country Regressions?,” Am. Econ. Rev., vol. 83, no. 2, pp. 426–30, 1993.
16. “Difference-in-Difference Estimation | Columbia University Mailman School of Public Health.” [Online]. Available: https://www.mailman.columbia.edu/research/population-health-methods/difference-difference-estimation. [Accessed: 16-Nov-2018].
17. Ailə kəndli təsərrüfatı haqqında. 2005.
18. Şəhər və qəsəbə inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə təsərrüfatbaşına uçot sənədlərinin və təsərrüfatbaşına uçotun aparılmasına dair göstərişin təsdiq edilməsi haqqında. 2017.
19. Ailə kəndli təsərrüfatının illik dövriyyəsinin yuxarı həddinin müəyyən edilməsi haqqında. 2006.
20. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. 2015.
21. “EUR-Lex - 32003H0361 - EN,” Official Journal L 124 , 20/05/2003 P. 0036 - 0041; [Online]. Available: https://eur-lex.europa.eu/LexUriServ/LexUriServ.do?uri=CELEX:32003H0361:EN:HTML. [Accessed: 23-Aug-2018].

***Самир Оруджев***

***Оценка современного состояния малого и среднего предпринимательства в Азербайджане и разработка классификационных критериев***

***Резюме***

*В статье проведено исследование мероприятий по развитию малого и среднего предпринимательства (МСП), а также сравнительный анализ с зарубежными странами. Было особо отмечено, что несмотря на то, что сектор МСП является характерной чертой развитых стран, в данных странах распределение средних и малых предприятий проходит равномерно и плавно. В Азербайджане же, исходя из данных двух критериев распределение МСП происходит не равномерно. Кроме этого, в статье было уделено внимание взаимосвязи МСП и экономического развития страны, а также критериям, характеризующим причины, препятствующим проведения в жизнь государственной политики по поддержке сектора МСП.В связи с этим в статье были даны альтернативные классификационные критерии, решающие данную проблему.*

***Ключевые слова:*** *малое и среднее предпринимательство, экономическое развитие, классификация, критерии, государственная поддержка.*



***Самир Оруджев***

***Evaluation of the current state of small and medium-sized enterprises in Azerbaijan and development of classification criterias***

***Summary***

*In the article, a study of activities for the development of small and medium-sized enterprises (hereinafter referred to as SMEs) was carried out, as well as a comparative analysis with foreign countries. It was highlighted that while the SME sector was a characteristic of developed countries, the distribution of medium-sized and small enterprises in those countries was uniform and smooth. In Azerbaijan, on the basis of these two criteria, the distribution of SMEs is not uniform. In addition, the article focused on the relationship between SMEs and the economic development of the country, as well as on the criteria that characterize the implementation of public policies to support the SMEs sector.*

***Keywords:*** *small and medium-sized entrepreneurship, economic development, classification, criteria, state support.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:15.10.2019.***
***Çapa qəbul olunub:18.10.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*